*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 46-50*

https://doi.org/10.62837/2025.8.46

**SVETLANA NOVRUZOVA**
**AMEA Nəsimi adına Dilçilik İnstitutu**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**
**snovruzova952@gmail.com**

# AZƏRBAYCAN DİLİNDƏ İCTİMAİ-SİYASİ TERMİNLƏRİN TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ

**Xülasə**

Azərbaycan dilində ictimai-siyasi terminlərin tarixi inkişafı ölkənin ictimai-siyasi həyatındakı dəyişikliklərlə sıx bağlı olmuşdur. Erkən dövrlərdə ərəb və fars mənşəli terminlər ("məclis", "divan", "vəzifə") üstünlük təşkil etmiş, XIX əsrdə Avropa təsiri ilə "parlament", "konstitusiya", "demokratiya" kimi anlayışlar dilə daxil olmuşdur. Sovet dövründə ideoloji xarakterli terminlər ("kommunizm", "proletariat", "kolxoz") ictimai diskursun əsasını təşkil etmişdir. Xüsusilə 1980-1990-cı illər milli azadlıq hərəkatı və SSRİ-dəki islahatlar nəticəsində terminologiyanın inkişafında dönüş yaratmışdır. Bu mərhələdə "istiqlal", "milli şüur", "meydan hərəkatı" kimi milli məfkurə terminləri ilə yanaşı, "plüralizm", "revanşizm", "demokratik tranzit" kimi beynəlxalq terminlər də dilə daxil olmuşdur. Müstəqillikdən sonra isə Azərbaycan dili yeni dövrün anlayışlarını ifadə edən terminlərlə zənginləşmiş, müasir mərhələdə isə qloballaşma təsiri altında "inteqrasiya", "qlobal təhlükəsizlik", "davamlı inkişaf" kimi anlayışlar aktivləşmişdir.

***Açar sözlər***: ictimai-siyasi terminlər, tarixi inkişaf, Azərbaycan dili, milli terminologiya, sovet dövrü, müstəqillik.

İctimai-siyasi terminologiya dil sistemində ən tez dəyişikliyə uğrayan və dinamik şəkildə inkişaf edən sahələrdən biridir. Bu terminlər ictimai həyatın müxtəlif mərhələlərində yaranan sosial-iqtisadi, siyasi və ideoloji dəyişikliklərin dil müstəvisində ifadə olunma formasıdır. Azərbaycan dilində ictimai-siyasi terminlərin inkişafı həm tarixi-siyasi şərait, həm də dilin daxili imkanları ilə sıx bağlı olmuşdur. Termin yaradıcılığında müxtəlif dövrlərdə həm milli mənbələr, həm də xarici dillərin təsiri mühüm rol oynamışdır. Bu baxımdan Azərbaycan dilində ictimai-siyasi terminlərin tarixi inkişaf mərhələlərinin araşdırılması həm terminologiya, həm də ümumi dilçilik baxımından aktualdır. Bu məqsədlə ictimai-siyasi terminlərin formalaşmasına təsir göstərən tarixi mərhələlərin ardıcıllıqla təhlili xüsusi əhəmiyyət kəsb edir.

1. *Erkən mərhələlər və klassik dövr*. Azərbaycan dilində ictimai-siyasi terminlərin tarixi orta əsrlərə gedib çıxır. *Bəy, xan, şah, əmir, divan, bəylərbəyi, cümə* (ictimai toplantı mənasında) kimi anlayışlar dövlət idarəçiliyi və ictimai

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 46-50*

münasibətlərin əsas terminləri idi. Bu mərhələdə ərəb və fars dillərindən alınma terminlər üstünlük təşkil edirdi. Ərəb dilindən daxil olan *məclis, xalq, dövlət, siyasət*, fars dilindən alınan *şura, vəzifə, hökumət* kimi sözlər bu gün də dilimizdə işlənməkdədir.

2. *XIX əsrdə yeni ictimai-siyasi terminlərin formalaşması.* XIX əsrin ikinci yarısında Rusiya imperiyasının tərkibində baş verən siyasi dəyişikliklər Azərbaycan ictimai həyatına da təsir göstərmişdir. Bu dövrdə *parlament, konstitusiya, millət, maarifçilik, vətəndaş* kimi terminlər meydana çıxdı. Qeyd edək ki, bəzi ictimai-siyasi anlayışlar daha çox rus dili vasitəsilə Azərbaycan dilinə keçirdi. Məsələn, *qəzet, proletariat, demokratiya, sosializm* terminləri Avropa mənbəli olub rus dili vasitəsi ilə daxil olmuşdur.

S.Xəlilova ictimai-siyasi terminologiyanın leksik-semantik zənginləşməsinə iki əsas halda ehtiyac olduğunu qeyd edir: 1. Yeni ictimai-siyasi anlayış yarananda və bu anlayışı adlandırmaq üçün müvafiq terminoloji sistemdə lazımi innovasiya olmadıqda; 2. Başqa dillərdən terminalma [2, s.32].

3. *Sovet dövründə ictimai-siyasi terminlərin inkişafı.* XX əsrin əvvəllərində Sovet hakimiyyətinin qurulması ilə ictimai-siyasi terminologiya yeni mərhələyə qədəm qoydu. Sovet ideologiyası ilə bağlı *kommunizm, partiya, sovet, kolxoz, proletar diktaturası, plenum, konqres* kimi terminlər geniş yayıldı. Bu terminlər yalnız siyasi idarəçilik sahəsini deyil, həm də gündəlik məişəti əhatə edirdi. Termin yaradıcılığı çox vaxt ideoloji nəzarət altında aparılırdı. Milli termin yaradıcılığına məhdudiyyətlər olsa da, Azərbaycan dilinin daxili resursları hesabına *əməkdaşlıq, müstəqillik, azadlıq, birlik* kimi milli ictimai-siyasi anlayışlar qorunub saxlanıldı.

1980-ci illərin əvvəllərində Azərbaycan ictimai-siyasi terminologiyasında hələ də sovet ideoloji yönümlü terminlər üstünlük təşkil edirdi. *Kommunist partiyası, sosializm yarışı, xalq deputatları soveti, SSRİ konstitusiyası, internasionalizm* kimi anlayışlar dövrün əsas terminoloji bazasını təşkil edirdi. Bu terminlər dövlət idarəçiliyi, mətbuat, təhsil və gündəlik ünsiyyətdə geniş şəkildə işlənirdi.

1985-ci ildən sonra SSRİ-də başlanan *yenidənqurma* (perestroyka) və aşkarlıq (qlasnost) siyasəti Azərbaycan ictimai-siyasi terminologiyasına da yeni anlayışlar gətirdi. *İslahat, aşkarlıq, demokratik dəyişikliklər, yenidənqurma, siyasi islahat* kimi terminlər dilin aktiv işlək qatına daxil oldu. Bu terminlər bir tərəfdən sovet mətbuatında, digər tərəfdən isə milli ziyalıların çıxışlarında və ictimai müzakirələrdə geniş yayıldı.

1980-ci illərin sonuna yaxın Azərbaycanda milli azadlıq hərəkatının güclənməsi ictimai-siyasi terminologiyanın milli ruhda zənginləşməsinə səbəb oldu. Bu mərhələdə *istiqlal, azadlıq, suverenlik, milli azadlıq hərəkatı, xalq cəbhəsi, meydan hərəkatı* kimi terminlər yaranaraq ictimai-siyasi mühitin aparıcı anlayışlarına çevrildi. Sovet ideoloji terminləri ilə paralel şəkildə milli məfkurə ilə bağlı anlayışlar da dilin aktiv lüğət tərkibində işlənməyə başladı.

Bəzi terminlər tərcümə yolu ilə Azərbaycan dilinə uyğunlaşdırılırdı. Məsələn:
*Xalq hakimiyyəti* rus. народная власть
*Əmək intizamı* rus.трудовая дисциплина
*Partiya nəzarəti* rus. партийный контроль
*Təbliğat-təşviqat işi* rus. агитационно-пропагандистская работа.

Sovet dövründə dil siyasəti ideoloji məqsədlərə tabe idi. Bu səbəbdən terminlər kommunist ideologiyasını möhkəmləndirmək, sinfi mübarizə anlayışını təbliğ etmək, partiya rəhbərliyini legitimləşdirmək kimi ideoloji yönümlü idi. İ.Hacıyeva yazır: "Cəmiyyətdə ideologiyanın meydana gəlməsi, bu ideologiyalar arasındakı mübarizə terminoloji fondun daha da zənginləşməsinə səbəb oldu" [1, s.25]. Bu mənada 1980-ci ildə ictimai-siyasi terminologiya təkcə linqvistik deyil, həm də ideoloji alət kimi çıxış edirdi.

Bu illərin ictimai-siyasi terminologiyası həm sovet ideologiyasının son mərhələsini, həm də müstəqilliyə aparan milli hərəkatın diskursunu özündə birləşdirir. Nəticədə Azərbaycan dilində ikiqat proses gedirdi: bir tərəfdən köhnə sovet terminləri hələ işlək idi, digər tərəfdən isə milli dövlətçilik və azadlıq ideyaları ilə bağlı yeni terminlər yaranırdı. Bu keçid dövrü 1991-ci ildən sonrakı müstəqillik dövrü terminologiyasının formalaşmasına zəmin yaratdı.

4. *Müstəqillik dövründə ictimai-siyasi terminlər*. 1991-ci ildən sonra müstəqil Azərbaycan Respublikasının yaranması ictimai-siyasi terminologiyanın tamamilə yeni mərhələsini formalaşdırdı. Dövlətçilik, hüquq, beynəlxalq münasibətlər, iqtisadi islahatlar ilə bağlı yüzlərlə yeni termin dilə daxil oldu. Məsələn, *pluralizm, siyasi sistem, konstitusiya quruluşu, müstəqil dövlət, bazar iqtisadiyyatı, insan hüquqları* və s. Eyni zamanda milli məfkurə ilə bağlı *milli siyasət, milli dövlətçilik, dil siyasəti, dövlətçilik ənənəsi, milli təhlükəsizlik* kimi anlayışlar geniş istifadə olunmağa başladı.

S.Novruzova ictimai-siyasi terminologiyanın formalaşması və inkişafını sosial inkişafın dialektikasını əks etdirən sosial anlayışların inkişafı ilə bağlayır. Dilçi yazır: "Ölkənin ictimai-siyasi həyatında baş verən radikal dəyişikliklər dilin leksik-semantik sistemində, ilk növbədə, ictimai-siyasi leksika sahəsində mühüm dəyişikliklərə səbəb olur ki, bu da tamamilə qanunauyğun prosesdir" [3, s.56].

Bu dövrdə termin yaradıcılığı həm xarici təsirlər, həm də milli dilin daxili imkanları əsasında inkişaf edirdi. Bir tərəfdən *plüralizm, multipartiyalı sistem, konsepsiya, revanşizm, ratifikasiya* kimi beynəlxalq mənşəli anlayışlar dilə daxil olurdu, digər tərəfdən isə milli dilin öz sözləri əsasında yeni ictimai-siyasi ifadələr formalaşırdı: *özünüdərk, milli şüur, azad seçkilər, milli birlik* və s.

XX əsrin son onilliyi Azərbaycan ictimai-siyasi terminologiyasının inkişafında xüsusi mərhələ kimi qiymətləndirilməlidir. Bu dövr milli azadlıq hərəkatının təsiri ilə formalaşan yeni terminoloji mühitlə səciyyələnirdi.

5. *Müasir mərhələ və qloballaşmanın təsiri*. XXI əsrdə Azərbaycan ictimai-siyasi leksikası daha çox qloballaşma və informasiya texnologiyalarının təsiri altında

inkişaf edir. Çağdaş dövrdə *geosiyasət, qlobal təhlükəsizlik, strateji tərəfdaşlıq, inteqrasiya, davamlı inkişaf, elektron hökumət, sosial şəbəkə siyasəti* kimi anlayışlar dilin aktiv söz ehtiyatına daxil olmuşdur. Bu terminlərin işlənməsi yalnız elmi mətnlərdə deyil, həm də gündəlik ictimai diskursda müşahidə olunur.

Azərbaycan dilində ictimai-siyasi terminlərin inkişafı bir neçə mühüm mərhələni əhatə etmişdir: klassik dövrdə ərəb-fars təsiri, XIX əsrdə rus dili vasitəsilə Avropa təsiri, sovet dövründə ideoloji yönümlü terminlər, müstəqillikdən sonra milli dövlətçilik və beynəlxalq münasibətlərə dair terminlər, müasir dövrdə isə qloballaşma və texnoloji inkişafla bağlı terminlər. Hər bir mərhələ ictimai-siyasi həyatdakı dəyişikliklərin dil müstəvisində əksi olmuşdur. Bu proseslər Azərbaycan dilinin zənginləşməsinə, ictimai-siyasi diskursun genişlənməsinə xidmət etmişdir.

**Светлана Новрузова**

**Этапы исторического развития общественно-политических терминов в азербайджанском языке**

**Резюме**

Историческое развитие общественно-политической терминологии в азербайджанском языке тесно связано с изменениями в социально-политической жизни страны. В ранний период преобладали арабские и персидские термины («меджлис», «диван», «вазифа»), в XIX веке под влиянием Европы в язык вошли такие понятия, как «парламент», «конституция», «демократия». В советский период основой политического дискурса стали идеологические термины («коммунизм», «пролетариат», «колхоз»). Особый поворот наблюдался в 1980–1990-е годы, когда в условиях национального движения и реформ в СССР в терминологии появились новые пласты: наряду с национально ориентированными понятиями («независимость», «национальное сознание», «движение на площади») активно употреблялись и международные термины («плюрализм», «реваншизм», «демократический транзит»). После обретения независимости азербайджанский язык обогатился терминами, отражающими реалии государственности, права и управления, а на современном этапе под влиянием глобализации активизировались такие понятия, как «интеграция», «глобальная безопасность», «устойчивое развитие».

***Ключевые слова***: Общественно-политическая терминология, историческое развитие, азербайджанский язык, национальная терминология, советский период, независимость.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 46-50*

**Svetlana Novruzova**

## Stages of the historical development of socio-political terms in the Azerbaijani language

**Abstract**

The historical development of socio-political terminology in the Azerbaijani language has been closely linked to the country's socio-political changes. In the early periods, Arabic and Persian terms ("majlis," "divan," "vazifa") dominated, while in the 19th century European influence introduced concepts such as "parliament," "constitution," and "democracy." During the Soviet era, ideologically driven terms ("communism," "proletariat," "kolkhoz") formed the core of political discourse. The 1980s–1990s marked a turning point due to national independence movements and reforms within the USSR. In this period, nationally oriented terms such as "independence," "national consciousness," and "Meydan movement" emerged alongside international terms like "pluralism," "revanchism" and "democratic transition". After independence, Azerbaijani enriched its lexicon with terminology reflecting the realities of statehood, law, and governance. In the contemporary stage, under the influence of globalization, terms such as "integration," "global security," and "sustainable development" have become active components of the socio-political vocabulary.

***Keywords***: Socio-political terms, historical development, Azerbaijani language, national terminology, Soviet period, independence.

### Ədəbiyyat

1. Hacıyeva İ. Azərbaycan dilinin ictimai-siyasi terminologiyası. Fil.ü.f.d. dissertasiyası. Bakı, 1997, 148 s.
2. Xəlilova S. İnternasional terminlər. Bakı, 1991.
3. Novruzova S. Azərbaycan dilində ictimai-siyasi terminlərin yeri. Terminologiya məsələləri, №2, Bakı, 2020.

**Rəyçi: fil.ü.f.d., dosent Sima Quliyeva**